Azərbaycan Respublikasının
Prezidenti Yanında
Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Şurası

MQSİPHK

Mina Qurbanlarının
Sosial-İqtisadi Problemlərinin
Həllinə Kömək
İctimai Birliyi



# Qəhrəman döyüşçülər və şəhidlərin ictimaiyyət arasında təbliği

Bakı - 2018

T3(2A)7-68



**"Şəhidlər vurulan zaman ölmür, unudulan zaman ölür."**
**Şəhidlərimizi unutmayaq!**

Müasir dövrdə yeniyetmə və gənclərin milli vətənpərlik ruhunda tərbiyəsi başlıca məqsədlərimizdən biridir. Bu, bir danılmaz faktdır ki, gənclik hər bir millətin inkişafının təməl daşıdır. Millətin mövcudluğu üçün sağlam gəncliyin olması vacib şərtdir. Çünki ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndrilməsi, gələcəyin etibarlı təminatı, potensial kadrların yetişdirilməsindən, onların aparıçı qüvvəyə çevrilməsindən asılıdır. Vətənpərvərlik təkcə vətəni sevmək deyil, vətənpərvərlik həm də vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar və fədakarlıqlar göstərməyə hazır olmaqdır.

Qəhrəmanlıq haqqında belə bir deyim var: "Anadan olan heç kim dünyaya qəhrəman kimi gəlmir. Qəhrəmanlar döyüşdə doğulur." Bu baxımdan 2016-cı ilin aprel ayında Azərbaycanın növbəti qəhrəmanları doğuldular.

Ermənistan Respublikasının rəhbərliyi 2016-cı il aprel ayında işğal olunmuş ərazilərdə Azərbaycana qarşı təxribat törətməklə təmas xəttini öz xeyirlərinə dəyişməyə cəhd etdi. Lakin Azərbaycan Silahlı Qüvvələri bu hücumların qarşısını qətiyyətlə alıb Ağdərə rayonu, eləcə də Füzuli və Cəbrayıl rayonları ərazisində vacib yüksəklikləri və strateji əhəmiyyətli əraziləri düşməndən azad etdi. Aprel döyüşlərində Azərbaycan Silahlı Qüvvələrinin 93 nəfər hərbi qulluqçusu şəhid oldu.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçi ilə keçirdiyi görüşdə bildirib ki,

113862



aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dfövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir: "Aprel döyüşləri nəticəsində işğaldan qismən azad edilmiş Füzuli, Cəbrayıl və Ağdərə rayonlarında bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir".

2016-cı il aprelin 19-da Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamları ilə Azərbaycan Silahlı

1m



Qüvvələrinin 3 döyüşçüsü "Azərbaycanın Milli Qəhrəmanı", 7 döyüşçü "Azərbaycan Bayrağı" ordeni, 1 döyüşçü 2-ci dərəcəli və 4 döyüşçü 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 19 döyüşçü "Vətən uğrunda" medalı, 43 döyüşçü "İgidliyə görə" medalı, 45 döyüşçü "Hərbi xidmətlərə görə" medalı, 2 döyüşçü "General-mayor" ali hərbi rütbəsi ilə mükafatlandırılıb.

Aprel döyüşləri Azərbaycan xalqının həmrəyliyini nümayiş etdirdi.

Bu döyüşlər Azərbaycan gənclərinin vətənpərvərlik ruhunu bir daha ortaya qoydu. Şəhidlərimizin cənazəsinin qarşılanması, xalqımızın birlik nümayiş etdirdiyi izdiham, qələbəyə yaxın olduğunumuzu bir daha sübut edidi.



Azərbaycan Milli Kitabxanası











Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyələşdirdiyi "Qəhrəman döyüşçülər və şəhidlərin ictimaiyyət arasında təbliği" layihəsi çərçivəsində "Mina Qurbanlarının Sosial-İqtisadi Problemlərinin Həllinə Kömək" İctimai Birliyi tərəfindən nəşr edilmişdir.

"Mina Qurbanlarının Sosial-İqtisadi Probelmlərinin Həllinə Kömək"
İctimai Birliyi
Az1108. Bakı şəhəri, Səttar Bəhlulzadə küçəsi, 31 saylı yataqxana, otaq 71
E-mail: h.mammadhasan@gmail.com
Tel: 012 5614600; 050 375 76 66

(055) 7 000 313

Çapa imzalanmışdır: 05.06.2018
Tiraj:500 Sifariş: 0854
Bakı, Ş.Əzizbəyov 201
e-mail: print313@mail.ru
Tel: 055/051 700 03 13